# Cənubi Qafqaz Regionu üzrə İsveçrə Əməkdaşlıq Proqramı 2022-2025














## Cənubi Qafqazda İsveçrə Əməkdaşlığı, 2022-2025

İsveçrənin Cənubi Qafqazda fəaliyyəti 1988-ci ilə gedib çıxır və o vaxtdan bu fəaliyyət Ermənistan, Azərbaycan və Gürcüstanda ikitərəfli layihələr və iqtisadi və demokratik inkişaf sahəsində əldə olunmuş nəticələr vasitəsilə daha da genişləndirilmişdir. İsveçrə özünün səmərəli əməkdaşlıq alətləri ilə etibarlı inkişaf tərəfdaşı kimi qəbul olunur. Özünün neytrallığı və təcrübəsi sayəsində o, həm də münaqişələrin həlli və vasitəçiliyində mötəbər tərəfdaş kimi görünür.

2022-25-ci illər üçün Cənubi Qafqazda İsveçrə Əməkdaşlıq Proqramı regionda sülhpərvər, inkluziv və dayanıqlı cəmiyyətlərin təşviq edilməsi üçün İsveçrənin davamlı öhdəliyini təsdiq edir. Əvvəlki nailiyyətlərə söykənərək İsveçrə üç tematik sahəyə diqqət yetirməklə regionun inkişaf istiqamətlərinə öz səmərəli töhfəsini vermək istəyir. Bu sahələr idarəçilik və sülh, iqtisadi inkişaf və məşğulluq, eləcə də, ətraf mühit və iqlim dəyişikliyidir. Bu dövr üçün ayrılmış maliyyə 80 milyon İsveçrə frankına bərabərdir.

### Ümumi məqsəd

*Region əhalisi regional dialoq və əməkdaşlıq vasitəsilə nail olunmuş dayanıqlı və inkluziv iqtisadi və sosial inkişaf, demokratik dövlət institutları, insan təhlükəsizliyi, sülh və artırılmış iqlim dəyişikliyinə qarşı davamlılıq kimi faydalardan bəhrələnir.*

Bu proqram İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (SDC), İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) və Sülh və İnsan Hüquqları Şöbəsi (PHRD) tərəfindən birlikdə icra olunur. Proqram milli və yerli hakimiyyət orqanları, vətəndaş cəmiyyətindən və özəl sektordan tərəfdaşlarla yaxından məsləhətləşmələrlə işlənib hazırlanmışdır. Sənəd İsveçrənin 2021-2024-cü illər üzrə Beynəlxalq Əməkdaşlıq Strategiyasına və 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə əsasən bizim tərəfdaş ölkələrin prioritetlərini və ehtiyaclarını dəstəkləmək üçün işlənib hazırlanıb.

## 2022-2025-ci illər üçün strateji istiqamət və prioritetlər

2022-2025-ci illərdə İsveçrə Cənubi Qafqaz regionunu 4 əsas sahələrdə dəstəkləyəcək və yoxsulluğun azaldılması, gender bərabərliyi və sosial inkluzivliyə sistemli yanaşma tətbiq edəcək. Gender və yaxşı idarəetmə əhatəli tətbiq olunan (transversal) mövzu olacaq. Bundan başqa, İsveçrənin bu proqramı onun layihələrinin miqrasiya, ətraf mühit, rəqəmsallaşma və mediaya necə təsir etdiyini və ya bu sadalananların layihələrə necə təsir etdiyini sistematik şəkildə nəzərdən keçirəcək.



**Vətəndaş cəmiyyəti fəallığını və bu sahəni, eləcə də regionda əməkdaşlığı qoruyub təşviq etmək**

Cənubi Qafqazın qeyri-hökumət təşkilatları və əhalisi, eləcə də münaqişədən zərər çəkmiş əhali və azlıqlar dayanıqlı iqtisadi inkişafı, sülhpərvər, inkluziv və dayanıqlı cəmiyyətlər qurulmasını, eləcə də etimadın yaradılması və dialoqu təşviq etmək üçün milli siyasi məsələlərin müzakirəsində, rəsmi qərar qəbulunda, eləcə də regional səviyyədə biliklərin toplanmasında və birgə fəaliyyətlərdə iştirak edir.



**Demokratiyanın gücləndirilməsi və dövlət institutları**

Ermənistan, Azərbaycan və Gürcüstanda milli və yerli səviyyədə dövlət institutları get-gedə daha səmərəli, inkluziv və vətəndaşlara qarşı hesabatlıdırlar və bu institutlar insan hüquqlarına və qanunun aliliyinə riayət edir.



**İqtisadi inkişafı yaxşılaşdırmaq və layiqli iş yerləri yaratmaq**

Ermənistan, Azərbaycan və Gürcüstanda KOS-lar və kənd yerlərindəki istehsalçılar dəstəkləyici biznes mühitində çalışdıqca gəlir əldə edir və iş yerləri açırlar, ixtisaslı işçilərin olmasından, şaxələndirilmiş bazarlar və xidmətlərdən, o cümlədən maliyyəyə çıxışdan faydalanırlar.



**İqlimin dayanıqlığının və dayanıqlı resurs idarəetməsinin gücləndirilməsi**

Ermənistan, Azərbaycan və Gürcüstanda milli və yerli hökumətlər, vətəndaş cəmiyyəti təşkilatları (VCT), akademik dairələr və özəl sektor nümayəndələri regional platformalarda iştirak edib öyrənərək, eləcə də qlobal ətraf mühit siyasətlərinə öz töhfələrini verərək iqlimlə bağlı addımlar və dayanıqlı resurs idarəetməsi vasitəsilə ətraf mühitlə bağlı nəticələri daha da yaxşılaşdırırlar.

## 2025-ci il və ondan sonra gözlənilən nəticələr

**Vətəndaş cəmiyyəti fəallığının və platformasının, eləcə də region əməkdaşlığının qorunması və həvəsləndirilməsi**

- Müvafiq siyasətlərin gücləndirilməsi və milli və yerli aktorların qabiliyyətlətinin artırılması, eləcə də özəl sektorda gender bərabərliyinin həvəsləndirilməsi vasitəsilə Cənubi Qafqazda qadınların gücləndirilməsinə nail olunmuşdur.
- Plüralist, innovativ və iştiraklı mədəniyyət sektoru, dialoq və mübadilələr vasitəsilə demokratiya, demokratik dəyərlər və insan hüquqları gücləndirilmişdir.
- Hökumət və VCT arasında məşvərət mexanizmləri sayəsində azlıqlar daha yaxşı inteqrasiya və iştirakçılıqdan bəhrələnirlər.
- VCT etimadın yaradılması və dialoqa fəal cəlb olunur və hökumətin konfliktin transformasiyası strategiyasına öz töhfələrini verir.
- Üç Cənubi Qafqaz ölkəsi arasında ideyaların, malların mübadilələri, eləcə də insanlar arasında mübadilələr həvəsləndirilir. Sərhədlər üzərindən bazar əlaqələri artır.
- Region üzrə işləyən təşkilatlar arasında əməkdaşlıq gücləndirilir.
- Müstəqil media və ifadə azadlığı həvəsləndirilir.

**Demokratiyanın və dövlət institutlarının gücləndirilməsi**

- Dövlət maliyyə idarəetməsi daha səmərəli, planlaşdırılabilən və dayanaqlıdır, borcların idarə olunması gücləndirilmişdir və maliyyə sektorunun sabitliyi yaxşılaşdırılmışdır.
- Yerli demokratik idarəetmə, iştirakçılıq və hesabatlılıq inkişaf etdirilmişdir, qadınlar, azlıqlar və diqqətdən kənarda qalmış qruplar da daxil olmaqla fəal vətəndaşlıq təcrübəsi gücləndirilmişdir.
- Yerli siyasi, inzibati və iqtisadi inkişaf üçün dövlət və ərazi islahatları/desentralizasiyaya nail olunmuşdur.
- Korrupsiyanın qarşısını almaq üçün iştiraklı demokratiya, insan hüquqları əsaslı yanaşmalar və qanunun aliliyi ilə bağlı islahatlar həvəsləndirilmişdir.
- Demokratik proseslər və münaqişələrin qeyri-zorakı həlli mexanizmləri gücləndirilmişdir.

**İqtisadi inkişafı daha da yaxşılaşdırmaq və layiqli iş yerləri yaratmaq**

- Kənd turizmi kimi kənd təsərrüfatına aid dəyər zəncirləri daha məhsuldar və ekologiyaya müvafiqdir.
- Özəl sektor texniki peşə təhsili sistemində fəal rol oynayır ki, bununla da əmək bazarı ehtiyacları ilə üst-üstə düşən vərdişlərin yaranmasına öz töhfəsini verir.
- Makroiqtisadi planlaşdırma və dövlət investisiyasının idarə olunması qabiliyyətləri gücləndirilir.
- KOB-ların maliyyə savadlılığı və idarəetmə qabiliyyətləri artırılır və maliyyəyə (bank kreditlərinə) və bazarlara çıxış yaxşılaşdırılır. İnvestisiya və biznes mühiti daha da yaxşılaşdırılır.
- Yerli özünüidarəetmə orqanlarının yaxşılaşdırılmış qabiliyyətləri yerli iqtisadi inkişafa əhəmiyyətli dərəcədə töhfə verir. Qadınlar da daxil olmaqla, yerli vətəndaşlar və kiçik və orta sahibkarlar rəqəmsal əlçatan ictimai xidmətlərdən faydalana bilirlər.
- Yeni iş yerləri və gəlir imkanları miqrasiyanın azaldılmasına öz töhfəsini verir.

**İqlim dayanıqlığının gücləndirilməsi və dayanıqlı resurs idarəetməsi**

- Həssas insanların, icmaların və regionların iqlimlə bağlı təhlükələrə və təbii fəlakətlərə qarşı dayanıqlığı çox-fəlakətli risk xəritələşməsi, monitorinqi, modelləşdirilməsi və proqnozlaşdırılması üzrə milli sistemlərin yaradılması vasitəsilə daha da gücləndirilmişdir.
- Fəaliyyətə yönəlik tədqiqat və strateji məsləhət işi sürətləndirilmişdir. İqlim dəyişikliyi və fəlakət risklərinin azaldılması üzrə universitet proqramı işlənib hazırlanmışdır.
- İqlim dəyişikliyi və biomüxtəliflik planları iqtisadi artımla əlaqələndirilmişdir.
- Regionda iqlim dəyişikliyinə uyğunlaşma və dağların dayanıqlı inkişafı məsələləri üzrə sübuta söykənən siyasi qərarlar, alimlərin və VTC-lərin ictimai vəkilliyi həvəsləndirilmişdir. Sərhədlər üzərindən texniki əməkdaşlıq dəstəklənmişdir.
- Yerli hakimiyyət və vətəndaşlar konkret olaraq meşələr üzrə resursların dayanıqlı idarəetməsi praktikasını qəbul etmiş və bununla da gəlirlərin şaxələndirilməsi ilə bağlı imkanlar yaratmışlar.

# 2017-2021-ci illər üzrə Əməkdaşlıq Strategiyasının bəzi əsas nəticələrinə baxış



Ermənistan, Azərbaycan və Gürcüstanda 1’500 qadın layiqli ödənişli iş yerləri tapmışlar. Azərbaycanda qadınlar üçün 3 resurs mərkəzi açılmış, Ermənistan və Gürcüstanda nizamlayıcı təsir qiymətləndirilməsi həyata keçirilmişdir.

Ermənistan və Gürcüstanda 1.5 milyondan çox vətəndaş şəffaf və səmərəli onlayn ictimai xidmət alır.





Azərbaycanda biznes mühitin yaxşılaşdırılması və maliyyəyə çıxışın asanlaşdırılması üçün iki maliyyə infrastrukturu – Özəl Kredit Bürosu və Daşınar Əmlakın Qeydiyyatı – yaradılmışdır.

Ermənistan və Gürcüstan əsas siyasi strateji sənədlər hazırlamışlar: desentralizasiya üzrə strategiya, dağlıq regionların inkişafı üzrə strategiya və yerli özünüidarəetmə haqqında qanun.





Ermənistan və Gürcüstanda 100-dən artıq KOB südçülük, ətçilik, yun və bal istehsalı dəyər zəncirlərində yeni məhsullar və brendlərin yaradılmasında dəstək almışdılar.



Ermənistan və Gürcüstanın kənd təsərrüfatı sektorunda 125,000 adamın xalis gəliri 10-30%-ə qədər artmışdır.

Ermənistan, Azərbaycan və Gürcüstanın tərəfdaş universitetlərində fəlakət risklərinin idarə olunması ilə bağlı onlayn təhsil modulu işlənib hazırlanmışdır.





Ermənistan, Azərbaycan və Gürcüstanda mədəni fərqliliyi və regional mübadilələri həvəsləndirmək üçün 37 kiçik mədəniyyət layihəsi qrant almışdır.

**Cənubi Qafqaz üzrə İsveçrə Əməkdaşlıq Təşkilatı:**
**İsveçrənin Ermənistandakı səfirliyi,** Məlik-Adamyan küçəsi 2/1
0010 Yerevan, Ermənistan, Tel.: +374 10 52 98 60; e-mail: yerevan@eda.admin.ch; website:
www.eda.admin.ch/armenia
Facebook: Embassy of Switzerland in Armenia

**Isveçrənin Azərbaycandakı səfirliyi**, Işəri şəhər, Böyük Qala küçəsi 9
1004 Bakı, Azərbaycan, Tel.: +994 12 437 38 50; e-mail: baku@eda.admin.ch; website:
www.eda.admin.ch/azerbaijan
Facebook: Embassy of Switzerland in Azerbaijan

**İsveçrənin Gürcüstandakı səfirliyi,** Radiani küçəsi 12
0179 Tbilisi, Gürcüstan, Tel.: +995 32 225 36 82/83/84; e-mail: tbilisi@eda.admin.ch; website:
www.eda.admin.ch/georgia
Facebook: Embassy of Switzerland in Georgia